“Dövlət qeydiyyatına alınmışdır”
Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin -------- saylı Ərazi Vergilər İdarəsi tərəfindən

Rəis: -------------

---

Bu sənəd gücləndirilmiş elektron imza ilə imzalanmışdır

**“Təsdiq edilmişdir“**

**“----------”** İstehsal- İstehlak Kooperativinin üzvləri tərəfindən

/ ------------

/ ------------

/ ------------

/ ------------

/ --------------

# “ ------------- ”

# İstehsal-İstehlak Kooperativinin

# N İ Z A M N A M Ə S İ

1. HÜQUQİ STATUSU

1.1. “-----------” İstehsal-İstehlak Kooperativi (bundan sonra "kooperativ" adlanacaq) Azərbaycan Respublikasının Mülki Məcəlləsinə, qüvvədə olan digər qanunvericilik aktları və bu Nizamnaməyə müvafiq olaraq yaradılmış və fəaliyyət göstərir.
1.2. Kooperativ istehsal kooperativi olmaqla, fiziki və (və ya) hüquqi şəxslərin birgə fəaliyyət göstərmək üçün üzvlüyə əsaslanan könüllü birliyi olub iştirakçılarının maddi və başqa tələbatının onun üzvlərinin əmlak pay haqlarının birləşdirilməsi yolu ilə ödənilməsi məqsədilə yaradılır.
1.3. Kooperativin tam adı: “--------” İstehsal-İstehlak kooperatividir.
1.4. Kooperativ müstəqil balansa malik olan hüquqi şəxsdir. Onun ayrıca əmlakı, dairəvi möhür və künc ştampı, bankda hesabları, öz adı ilə əmtəə nişanı və digər rekvizitləri vardır.
1.5. Kooperativin hüquqi ünvanı: ------ rayonu, ---------- kəndi.

2. KOOPERATİVİN FƏALİYYƏTİNİN MƏQSƏDİ

Kooperativin fəaliyyətinin məqsədi kooperativ üzvlərinin əmlak pay haqlarını könüllü birləşdirmək yolu ilə onların maddi tələbatının təmin edilməsidir.

3. KOOPERATİVİN HÜQUQLARI, VƏZİFƏLƏRİ VƏ FƏALİYYƏT PREDMETİ

3.1. Kooperativin aşağıdakı hüquqları vardır:
- Mülki Məcəllədə və Azərbaycan Respublikasının digər qanunvericilik aktlarında nəzərdə tutulan hüquqları həyata keçirmək;
- banklarda hesab açmaq, kreditlər almaq və onlardan məqsədyönlü istifadə etmək;
- müstəqil surətdə əmlaka sahiblik, əmlakdan istifadə və əmlaka sərəncam vermək;
- Kooperativlər ittifaqında (assosiasiyalarda) birləşmək və beynəlxalq kooperativ təşkilatlarının fəaliyyətində iştirak etmək;
- müqavilə bağlamaq, öz üzərinə əmlak və başqa öhdəliklər götürmək;
- bina tikintisi üçün müəyyən olunmuş qaydada torpaq sahəsi almaq;
- dövlət tərəfindən tənzimlənən qiymət istisna olmaqla, öz işi və xidmətinə qiymət və tarif müəyyən etmək;
- özünün təşkilat strukturunu müəyyən etmək;
- öz fəaliyyətini həyata keçirmək üçün muzdlu işçilər tutmaq;

3.2. Kooperativin vəzifələri:
Kooperativ Azərbaycan Respublikası qanunvericiliyi və bu Nizamnamə ilə nəzərdə tutulmuş, habelə kooperativ üzvlərinin Ümumi Yığıncağının qərarları ilə müəyyən edilmiş vəzifələri daşıyır. Kooperativ öz öhdəliklərinə görə ona məxsus olan əmlakı ilə cavabdehdir.
3.3. Kooperativin əsas fəaliyyətini arıçılıq məhsullarının istehsalı, tədarükü, emalı və satışı xidmətlərinin göstərilməsi təşkil edir.

4. KOOPERATİVİN PAY FONDUNUN MÜƏYYƏN EDİLMƏSİ

4.1. Kooperativ üzvlərinin kooperativə verdiyi əmlak pay haqları kooperativin pay fondunu təşkil edir. Üzvlər pay fonduna öz mütləq pay haqlarını pul şəklində, habelə daşınar və daşınmaz əmlak formasında qoya bilərlər. Kooperativin pay fondu Ümumi Yığıncağın qərarı ilə müəyyən edilir.
4.2. Kooperativ üzvlərinin pay haqlarına onların şəxsi borclarına görə tutma, yalnız həmin borcları ödəmək üçün onların başqa əmlakı kifayət etmədikdə yönəldilə bilər.

4.3. Ümumi Yığıncağın qərarı ilə pay fondu artırıla və azaldıla bilər. Pay fondunun miqdarı kooperativinin xalis aktivlərinin miqdarından artıq olmamalıdır. Kooperativin pay fondunun miqdarı onun xalis aktivlərinin miqdarından artıq olduqda pay fondu mütləq pay haqlarının proporsional azaldılması yolu ilə göstərilən fərq məbləğində azaldılmalıdır.
Əgər ikinci və sonrakı illərin sonunda kooperativin xalis aktivlərinin dəyəri pay fondunun dəyərindən az olarsa, Ümumi Yığıncaq pay fondunun azaldığını elan etməyə və onu qanunvericiliklə müəyyənləşdirilmiş qaydada qeydə alınmasını təmin etməyə borcludur.
Kooperativin pay fondu mütləq pay haqları miqdarının artırılması yolu ilə artırıla bilər. Belə artırılma üzvlər tərəfindən əmlak payının ödənilməsi vasitəsilə həyata keçirildikdə, əmlakla (əmlak hüquqları ilə) ödənilən payların dəyərinin müəyyən edilməsi qanunvericiliklə müəyyənləşdirilmiş qaydada qiymətləndirmə fəaliyyəti ilə məşğul olan şəxslər cəlb edilməklə aparılır.
4.4. Kooperativin ilkin pay fondu 100 (yüz ) manat müəyyən edilmişdir və hər biri 1 (bir) manat olmaqla 100 (yüz) paydan ibarətdir. Pay fondunda kooperativ üzvlərinin mütləq pay haqları aşağıdakı kimidir:

1. ------------ qızı– 20 manat, 20 pay, 20%, pul şəklində
2. ------------- qızı – 20 manat, 20 pay, 20%, pul şəklində
3. ------------- qızı– 20 manat, 20 pay, 20%, pul şəklində
4. -------------- qızı– 20 manat, 20 pay, 20%, pul şəklində
5. -------------- qızı – 20 manat, 20 pay, 20%, pul şəklində.

4.5. Kooperativin pay fondu kooperativ dövlət qeydiyyatına alındıqdan sonra ödənilməlidir. Göstərilən müddətdə mütləq pay haqqını ödəməyən kooperativ üzvü Ümumi Yığıncağın qərarı ilə üzvlükdən çıxarılır.
4.6. Əlavə əmlak pay haqqı üzv tərəfindən mütləq pay haqqından əlavə, öz arzusu ilə ödənilən və kooperativ ödənişlərindən (əsas kooperativ ödənişlərindən) başqa, həmçinin dividend (əlavə kooperativ ödənişləri) almaq hüququ verən paydır. Sonradan ödənilən əmlak paylarının həcmi və verilmə qaydası Ümumi Yığıncaq tərəfindən müəyyən edilir.

## 5. KOOPERATİVİN ÜZVLƏRİ, ONLARIN HÜQUQ VƏ VƏZİFƏLƏRİ

5.1. Azərbaycan Respublikasının Mülki Məcəlləsinin tələblərinə cavab verən, bu Nizamnamədə müəyyən edilən qaydada və həcmdə üzvlük haqqı, mütləq və əlavə pay haqqı ödəməklə kooperativə qəbul edilmiş, onun fəaliyyətində iştirak edən və səs hüququ olan şəxs Kooperativin üzvü hesab edilir. Kooperativin Nizamnaməsini qəbul edən, mülki qanunvericiliyin tələblərinə cavab verən və bu Nizamnamə ilə müəyyən edilmiş qaydada və həcmdə üzvlük haqqı və əmlak pay haqqı ödəyən şəxslər kooperativin üzvü ola bilərlər. Kooperativ üzvünün əmlak pay haqqı daşınar və (və ya) daşınmaz əmlakdan, habelə pulla qiymətləndirilən əmlak hüquqlarından ibarət olan pay haqqıdır. Əmlak pay haqqı mütləq və əlavə ola bilər. Kooperativin üzvü başqa kooperativin də üzvü ola bilər. Kooperativin sədri (Müşahidə Şurası fəaliyyət göstərdikdə isə, həmçinin Müşahidə Şurasının üzvləri) oxşar kooperativin üzvü ola bilməz.
5.2. Üzvlük haqqı iştirakçının kooperativ üzvlüyünə daxil olması zamanı bununla bağlı xərclərin ödənilməsi üçün verilən pul məbləğidir. Üzvlük haqqının miqdarı 5 (beş) manatdır.

5.3. Kooperativin Nizamnaməsi və digər daxili sənədləri ilə nəzərdə tutulan qaydada və formada üzvlük və pay haqlarınının ödənilməsi üzrə öhdəlikləri lazımi qaydada yerinə yetirən Kooperativ üzvlərinə istifadəsində olan yaşayış sahəsindən asılı olmayaraq mənzil almaqda üstünlük verilir.
5.4. Kooperativ üzvlərinin aşağıda göstərilən hüquqları vardır:

- Kooperativə daxil olmaq və könüllü qaydada kooperativdən çıxmaq;
- Kooperativin idarə edilməsində və fəaliyyətində iştirak etmək, kooperativin orqanlarını seçmək və onlara seçilmək;
- Kooperativin fəaliyyətinə dair məlumat almaq və onun maliyyə, eləcə də digər sənədləri ilə tanış olmaq;
- Kooperativin fəaliyyətinin yaxşılaşdırılması, onun orqanlarının və vəzifəli şəxslərinin işində olan nöqsanların aradan qaldırılması barədə təkliflər vermək;
- Kooperativ ləğv edildikdə kreditorlarla hesablaşmalardan sonra əmlakın onun payına düşən hissəsini və ya bu hissənin dəyərini almaq;
- Kooperativin üzvləri üçün nəzərdə tutulmuş imtiyazlardan və güzəştlərdən istifadə etmək;
- Mülki Məcəllədə, digər qanunvericilik aktlarında və bu Nizamnamədə nəzərdə tutulmuş digər hüquqları həyata keçirmək;

Kooperativin fəaliyyətində şəxsi əməyi ilə iştirak edən üzvlərin göstərilən hüquqlardan savayı, öz əməyinə görə pul və ya natura ilə əmək haqqı almaq hüquqi vardır.
5.5. Kooperativin üzvlərinin aşağıda göstərilən vəzifələri vardır:

- Kooperativə daxil olduqda Nizamnamədə nəzərdə tutulmuş qaydada və həcmdə üzvlük haqqı və mütləq əmlak pay haqqı vermək və kooperativin fəaliyyəti ilə əlaqədar üzərinə götürdüyü digər öhdəlikləri yerinə yetirmək;
- Nizamnaməyə əməl etmək, kooperativin orqanlarının qərarlarını yerinə yetirmək;
- mülki qanunvericilikdə nəzərdə tutulmuş hallarda və qaydada kooperativdə əmələ gəlmiş zərərin ödənilməsində iştirak etmək;
- qanunvericilikdə və Nizamnamədə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

5.6. Kooperativ üzvləri aşağıdakı güzəştlərdən və imtiyazlardan istifadə edə bilər:

- Kooperativ tərəfindən istehsal olunmuş məhsullarla birinci olaraq təmin olunma hüququndan;
- Ümumi Yığıncağın razılığı ilə öz üzvlük hüquqlarını başqa şəxsə vermək, yaxud hüquqlarından başqasının xeyrinə imtina etmək hüququndan;
- Ümumi yığıncağın qərarları ilə müəyyən olunan digər güzəştlərdən imtina etmək hüququndan.

5.7. Kooperativ öz üzvlərinin kooperativin fəaliyyəti ilə əlaqədar götürdükləri öhdəliklərinə və Mülki Məcəllənin 112.5-ci maddəsində nəzərdə tutulmuş hal istisna olmaqla, başqa öhdəliklərinə (borclarına) görə məsuliyyət daşımır. Kooperativ yaradıldıqdan sonra ona üzv olan şəxs üzv olmasından əvvəl kooperativin götürdüyü öhdəliklərə görə məsuliyyət daşıyır. Kooperativə üzv olmaq istəyən şəxsə bu barədə bütün zəruri məlumatlar verilməlidir. Kooperativ əmələ gəlmiş zərəri illik balansın təsdiqindən sonra iki ay ərzində əlavə haqlar vermək yolu ilə ödəməyə borcludur. Bu vəzifə yerinə yetirilmədikdə kreditorların tələbi ilə kooperativ məhkəmə qaydasında ləğv edilə bilər.
5.8. Kooperativin üzvləri kooperativin öhdəliklərinə görə subsidiar məsuliyyət daşıyırlar. Kooperativ üzvlərinin kooperativin öhdəliklərinə görə subsidiar məsuliyyəti kooperativin öz öhdəliklərinin silinməsi üçün kifayət qədər vəsaitləri olmadıqda yaranır və qanunvericiliyə müvafiq qaydada müəyyənləşdirilir.

## 6. KOOPERATİVİN ÜZVLÜYÜNƏ DAXİL OLMAQ, ÇIXMAQ VƏ XARİC EDİLMƏK QAYDALARI

6.1. Kooperativin üzvlüyünə qəbul və üzvlükdən çıxmaq ərizə əsasında, Ümumi Yığıncağın qərarı ilə həyata keçirilir.

6.2. Kooperativ üzvlərinin sayı beşdən az ola bilməz. Kooperativə üzvlüklə bağlı digər məsələlər Mülki Məcəllə ilə tənzimlənir.
6.3. Kooperativin üzvünə üzvlük kitabçası verilir. Kitabçada kooperativ üzvü haqqında məlumat, onun kooperativə daxil olma vaxtı, üzvlük forması və əmlak payı göstərilir. Kitabça kooperativin sədri tərəfindən imzalanır və kooperativin möhürü ilə təsdiq edilir.
6.4. Kooperativ üzvlüyündən xaric etmə Mülki Məcəllədə, digər qanunvericilik aktlarında və Ümumi Yığıncağın qanunvericiliyə uyğun olaraq qəbul etdiyi daxili sənəddə müəyyən olunmuş qaydada həyata keçirilir.
6.5. Kooperativlər haqqında qanunvericiliyə uyğun olaraq pay haqqını tam ödəmədiyinə görə kooperativdən çıxarılmış və ya könüllü olaraq öz ərizəsi ilə kooperativdən çıxmış üzvə onun payının məbləği (dəyəri) kooperativ üzvünün çıxarılması haqqında qərar qəbul edildiyi gündən iki aydan çox olmayan müddətdə qaytarılır.
6.6. Nizamnamənin 6.5-ci bəndi ilə nəzərdə tutulmuş ödəmənin məbləği, üzvlüyə xitam verilməsi ilə əlaqədar bütün digər məsələlər Mülki Məcəlləyə, digər qanunvericilik aktlarına və bu Nizamnaməyə müvafiq olaraq müəyyən edilir.

## 7. KOOPERATİVİN SEÇKİLİ (İDARƏETMƏ VƏ NƏZARƏT) ORQANLARI, ONLARIN SƏLAHİYYƏTLƏRİ, SEÇKİLİ ORQANLARA SEÇİLMƏ VƏ GERİ ÇAĞIRILMA QAYDALARI

7.1. Kooperativin ali idarəetmə orqanı kooperativ üzvlərinin Ümumi Yığıncağıdır və kooperativin fəaliyyətinə aid bütün qanunla müəyyən edilmiş məsələləri həll etmək səlahiyyətinə malikdir. Ümumi yığıncaq kooperativin sədri tərəfindən ildə bir dəfə, lakin maliyyə ilinin başa çatmasından ən geci üç ay keçənədək çağırılır. Növbədənkənar Ümumi Yığıncaq kooperativ sədrinin, Təftiş Komissiyasının (Müfəttişin) təşəbbüsü, yaxud səs hüququna malik olan üzvlərin azı dörddə birinin tələbi ilə çağrılır. Müvafiq təşəbbüs və ya tələb irəli sürüldükdən sonra 15 (on beş) gün müddətində sədr növbədənkənar Ümumi Yığıncağın keçirilməsini təmin etməlidir.
7.2. Ümumi Yığıncaq üzvlərin yarıdan çoxu iştirak etdikdə səlahiyyətlidir. Səlahiyyətli Ümumi Yığıncaq özünün müstəsna səlahiyyətinə aid olan qərarları üçdə iki səs çoxluğu ilə, digər qərarları isə sadə səs çoxluğu ilə qəbul edir. Səsvermə açıq və ya gizli qaydada keçirilə bilər.
7.3. Aşağıdakı məsələlərin baxılması və haqqında qərar qəbul edilməsi Ümumi Yığıncağın müstəsna səlahiyyətinə aiddir:
- Kooperativin Nizamnaməsinin qəbul olunması, əlavələr və dəyişikliklər edilməsi;
- Kooperativin üzvlüyünə qəbul və üzvlükdən xaric etmə;
- Kooperativin sədrini, sədr müavinini, Təftiş Komissiyasını (müfəttişi) seçmək, onların hesabatını dinləmək və onların səlahiyyətinə xitam vermək;
- Kooperativin yenidən təşkili və ləğvi haqqında qərar qəbul etmək;
- pay haqqı və digər ödənişlərin həcmini və onların üzvlər tərəfindən ödənilmə qaydalarını, pay haqqını tam ödəməyən üzvlərin məsuliyyəti məsələlərini müəyyənləşdirmək;
- pay haqqının miqdarını müəyyən etmək;
- Kooperativin xüsusi fondlarını yaratmaq;
- əsas fondlara daxil olan əmlak əldə etmək və onları özgəninkiləşdirmək;
- Kooperativin fondlarının növlərini və həcmini, həmçinin onların formalaşdırılması şərtlərini müəyyən etmək;
- Kooperativin digər kooperativlərə, kooperativ cəmiyyətlərinə, ittifaqlara, assosiasiyalara daxil olması və onlardan çıxması məsələlərini həll etmək;
- Kooperativ üzvlərini şikayətinə baxmaq;

- cari işlərin həlli üçün orqanlar yaratmaq və onların səlahiyyətlərini müəyyən etmək;
- Kooperativin fəaliyyəti ilə bağlı sənədlərin tərtibi qaydalırını (kooperativə qəbulun, üzvlərin siyahısının və pay haqlarının qəbulunun rəsmiləşdirilməsi, Ümumi Yığıncağın və digər idarəetmə orqanlarının protokollarının tərtibi və s.) müəyyən etmək;
- Kooperativin fəaliyyətinə aid digər məsələləri həll etmək.

7.4. Kooperativin üzvlərinin sayı 200-dən artıq olduqda, üzvlərin ümumi yığıncağı müvəkkillərin yığıncağı şəklində keçirilə bilər. Üzvlərin sayı 50-dən çox olduqda isə Müşahidə Şurası yaradıla bilər. Göstərilən hallarda Müvəkkillər Yığıncağının və Müşahidə Şurasının yaranma qaydası və fəaliyyəti Azərbaycan Respublikasının Mülki Məcəlləsi ilə tənzimlənir.

7.5. Kooperativin sədri Ümumi Yığıncaq tərəfindən açıq səsvermə yolu ilə 2 (iki) il müddətinə seçilir.
Kooperativin sədri:

- Kooperativ üzvlərinin ümumi yığıncaqları arasındakı dövrdə Kooperativin cari fəaliyyətinə rəhbərlik edir, onun işlərini aparır;
- Kooperativi təmsil edir;
- Kooperativin adından müqavilələr bağlayır, rəsmi sənədləri imzalayır;
- Nizamnaməyə uyğun olaraq, Kooperativin əmlakına sərəncam verir;
- Kooperativin işçilərini vəzifəyə təyin edir, başqa işə keçirir, vəzifədən azad edir, onların vəzifə maaşlarını müəyyən edir;
- Təftiş Komissiyasının (Müfəttişin) apardığı yoxlamanın nəticələrinə baxır və müvafiq qərar qəbul edir;
- qanunvericiliklə və kooperativin Nizamnaməsi ilə Ümumi Yığıncağın, Müşahidə Şurasının və Təftiş Komissiyasının (Müfəttişin) səlahiyyətlərinə aid edilməyən digər səlahiyyətləri həyata keçirir;

Kooperativin sədri Ümumi Yığıncağın qərarına və ya öz ərizəsinə əsasən vaxtından əvvəl vəzifədən azad edilə bilər.

7.6. Kooperativin sədr müavini Ümumi Yığıncaq tərəfindən açıq səsvermə yolu ilə 2 (iki) il müddətinə seçilir.

Kooperativin sədr müavini kooperativin sədri məzuniyyətdə, ezamiyyətdə, səhhəti ilə əlaqədar müalicədə olduğu müddətdə onun səlahiyyətlərini icra edir. Kooperativin Ümumi Yığıncağının qərarı ilə kooperativin sədr müavininə kooperativ sədrinin səlahiyyətlərinin bir hissəsinin icrası həvalə edilə bilər.

7.7. Kooperativin fəaliyyətinə nəzarəti Ümumi Yığıncaq tərəfindən 2 (iki) il müddətinə seçilmiş Təftiş Komissiyası (Müfəttiş) həyata keçirir.
Təftiş Komissiyası (Müfəttiş):

- maliyyə-təsərrüfat ilinin nəticələrinə görə kooperativin maliyyə vəziyyətini yoxlayır;
- Ümumi Yığıncağın, sayı on faizdən çox olan üzvlərin tələbi ilə, habelə öz təşəbbüsü ilə kooperativin maliyyə-təsərrüfat fəaliyyətini növbədənkənar qaydada yoxlayır;
- müvafiq yoxlamanın nəticələrinə əsasən kooperativin idarəetmə orqanlarına rəy təqdim edir.

Təftiş Komissiyası (Müfəttiş) Ümumi Yığıncaq tərəfindən səlahiyyət müddəti bitməmişdən əvvəl geri çağırıla bilər.

## 8. KOOPERATİVİN FONDLARININ HƏCMİ, YARADILMASI VƏ İSTİFADƏSİ QAYDALARI

8.1. Kooperativ öz fəaliyyətini həyata keçirmək üçün Ümumi Yığıncağın qərarı ilə üzvlük haqqı, pay haqqı, kooperativ ödənişləri və digər fondlar yarada bilər.

8.2. Kooperativin fondlarının həcmi, yaradılması, istifadəsi və ləğvi qaydaları kooperativin Ümumi Yığıncağının qərarı ilə qəbul edilmiş daxili sənədlərlə müəyyən olunur.

## 9. KOOPERATİVİN İŞİNİN PLANLAŞDIRILMASI, UÇOTU VƏ HESABATI

9.1. Kooperativ yerinə yetirdiyi işlərə, göstərdiyi xidmətlərə olan tələbatı nəzərə alaraq, müstəqil surətdə öz fəaliyyətini planlaşdırır və inkişaf perspektivlərini və eyni zamanda istehsal və sosial inkişafını müəyyən edir.
9.2. Kooperativ öz fəaliyyətinin nəticələrinə görə qanunvericiliklə müəyyən edilmiş qaydada və formada mühasibat və əməliyyat uçotu, statistik hesabat aparır, balans tərtib edir.
9.3. Kooperativin maliyyə ili qeydiyyata alındığı vaxtdan başlayır və 31 dekabrda başa çatır. Növbəti maliyyə ili isə 1 yanvardan 31 dekabradək olan dövrü əhatə edir.

## 10. SIĞORTALANMA

10.1. Kooperativin əmlakının, istehsal, maliyyə və digər risklərinin sığortası Azərbaycan Respublikasının qanunvericiliyi ilə məcburi sığorta nəzərdə tutulmazsa, onun öz mülahizəsi ilə həyata keçirilir.

## 11. ƏMƏK MÜNASİBƏTLƏRİ

11.1. Kooperativdə işəgötürmə və azadetmə məsələləri, əmək rejimi, əmək haqqı, kompensasiyalar da daxil olmaqla əmək qanunvericiliyi ilə tənzimlənir.
11.2. Əmək haqqı Kooperativin işçilərinin sosial təminatı məsələləri, məzuniyyətlərin verilməsi onların hər biri ilə bağlanan Əmək müqavilələri əsasında qanunvericiliyə uyğun qaydada həll edilməlidir.

## 12. KOOPERATİVİN ƏMLAK VƏ VƏSAİTİ, ONLARIN YARANMA MƏNBƏLƏRİ

12.1. Kooperativin mülkiyyətində olan əmlak kooperativin nizamnaməsinə müvafiq surətdə onun üzvlərinin paylarına bölünür. Kooperativin əmlakı (vəsaitəri)onun əsas fondlarından, dövriyyə vəsaitindən və balansında göstərilən digər maddi dəyərlərindən ibarətdir. Kooperativin əmlakının formalaşdırılması mənbələri onun öz vəsaiti və cəlb edilmiş vəsait ola bilər.
Kooperativ öz vəsaitini aşağıdakı mənbələr hesabına formalaşdırılır:

- Nizamnamədə nəzərdə tutulmuş əmlak pay haqlarından;
- kreditlərdən, fiziki və hüquqi şəxslərin ianələrindən;
- Kooperativin üzvlərinn verdikləri d axilolma haqqından;
- qanunla qadağan olunmayan digər mənbələrdən.

Kooperativ tərəfindən qanunvericiliklə müəyyənləşdirilmiş qaydada cəlb edilən vəsaitin həcmi kooperativin ümumi vəsaitlərinin (əmlakının) 50 faizindən çox olmamalıdır. Kooperativin əmlakı onun xüsusi mülkiyyətindədir. Kooperativin üzvü onun mülkiyyətində olan əmlakı müqavilə əsasında istifadə edilmək üçün kooperativə verə bilər.

## 13. KOOPERATİVİN NİZAMNAMƏSİNİN QƏBUL OLUNMASI, ONA ƏLAVƏLƏR VƏ DƏYİŞİKLİKLƏR EDİLMƏSİ QAYDALARI

13.1. Kooperativin Nizamnaməsi Azərbaycan Respublikası qanunvericiliyi ilə müəyyən olunmuş qaydada kooperativin Ümumi Yığıncağı tərəfindən qəbul edilir.
13.2. Kooperativin Nizamnaməsinə əlavə və dəyişikliklərin edilməsi həmin nizamnamənin qəbul olunduğu qaydada həyata keçirilir.

## 14. KOOPERATİVİN YENİDƏN TƏŞKİLİ VƏ LƏĞV EDİLMƏSİ QAYDALARI

Kooperativin yenidən təşkili və ləğv edilməsi qaydaları Azərbaycan Respublikasının Mülki Məcəlləsi, digər müvafiq qanunları və həmin qanunlara uyğun olaraq kooperativin Ümumi Yığıncağı tərəfindən qəbul edilən sənədlərlə müəyyən olunur və həyata keçirilir.

## 15. DİGƏR ŞƏRTLƏR

Kooperativin fəaliyyəti ilə əlaqədar olan, lakin bu Nizamnamə ilə nizamlanmayan məsələlər Azərbaycan Respublikasının qanunvericiliyi və Ümumi Yığıncağın həmin qanunvericiliyə zidd olmayan qərarları ilə tənzimlənir.